

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 245 (21.397)

13 dekabr 2015-ci il, bazar

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 12 il keçir.

Vəfatından sonra xalqın yaddaşında qalmaq hər kəsə nəsib olmur. Xalq yalnız sevdiklərini yadda saxlayır və yaşadır. Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq. Çünki bu dahi insan öz nəcib əməlləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş böyük azərbaycanlıdır.

İstedadlı insanlar, böyük şəxsiyyətlər üçün zaman və məkan məhdudiyyəti yoxdur. Onlar heç bir zamana və məkana sığmırlar. Bu, əsrlərin sınağından çıxan və öz təsdiqini tapan həqiqətdir. Zaman bu həqiqəti də təsdiq edir ki, dünyanın tarixi böyük şəxsiyyətlərin mənalı ömür yoludur. Bu mənada Heydər Əliyevin ömür yolu Azərbaycanın tarixidir. Elə bu səbəbdən də bu ömür yolu hər zaman yaddaşlarda yaşayacaq.

Dekabrın 12-də Azərbaycan Prezidenti İlham Əliyev və oğlu Heydər Əliyev Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdilər.

Milli Məclisin deputatları, nazirlər, komitələrin, şirkətlərin və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəlmişdilər.

Prezident İlham Əliyev ulu öndərin məzarı önünə əklil qoydu.

Azərbaycanın Dövlət Himni səsləndi.

Dövlətimizin başçısı İlham Əliyev və oğlu Heydər Əliyev ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

# Naxçıvanda ümummilli liderimiz Heydər Əliyevin xatirəsi dərin ehtiramla yad edilmişdir





Dekabrın 12-də müasir Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli liderimiz Heydər Əliyevin əziz xatirəsi ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da dərin ehtiramla yad edilmişdir.

Həmin gün minlərlə insan səhər saatlarından başlayaraq Naxçıvan şəhərinin Heydər Əliyev prospektində ulu öndərimizin əzəmətlə ucalan abidəsini ziyarət etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ümummilli liderimiz Heydər Əliyevin abidəsi önünə tər gül dəstəsi qoymuş, xalqımızın böyük oğlunun xatirəsini ehtiramla yad etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin, nazirlik, komitə, şirkət və baş idarələrin, müəssisə və təşkilatların, ali məktəblərin kollektivləri, hərbi hissələrin, ictimaiyyətin nümayəndələri, minlərlə insan ulu öndərin abidəsini ziyarət etmiş, dahi şəxsiyyətin əziz xatirəsinə sonsuz məhəbbətlərini ifadə etmişlər.

Ən yeni tariximizin elə bir məqamı yoxdur ki, ulu öndərimiz Heydər Əliyevin adı, həyatı və siyasi fəaliyyəti ilə sıx şəkildə bağlı olmasın. Dahi şəxsiyyət parlaq siyasi zəkası və istedadı sayəsində müstəqil və qüdrətli Azərbaycan dövlətini yaratmış, onun davamlı inkişaf yollarını müəyyənləşdirmişdir. Bu gün müstəqil Azərbaycanın inkişafının hər bir zərrəsində dahi rəhbərin ideyaları yaşayır. Ölkə Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"Heydər Əliyevin adı bu gün bölgədə və dünyada layiqli mövqe qazanmış Azərbaycan dövlətinin rəmzi kimi səslənir".***

***"Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır. Əgər mən buna nail ola bilsəm, ən xoşbəxt insan kimi həyatımı başa çatdıracağam"***, – deyən ümummilli liderin ölkəmizə rəhbərlik etdiyi dövrlərdə yaratdığı sosial-iqtisadi və siyasi baza Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində, xalqın vahid ideologiya – vətən üçün yaşamaq, vətən üçün fəaliyyət göstərmək fəlsəfəsi ətrafında birləşməsində əsas hərəkətverici qüvvə olmuşdur.

Ümummilli lider elə bir fenomen şəxsiyyətdir ki, zaman keçdikcə, illər ötdükcə, onun böyüklüyünü daha dərindən dərk edirik. Xalqımızın böyük oğlu Azərbaycanın uğurlu gələcəyinə işıq salan mükəmməl inkişaf konsepsiyası hazırlamış və mənalı ömrünü bu ideyaların həyata keçirilməsinə həsr etmişdir. O, hər dəfə Azərbaycanın müqəddəratının həll olunduğu təhlükəli və mürəkkəb məqamlarda xalqın köməyinə çatmış, onu zamanın ağır məngənəsindən xilas etmişdir.

Dahi lider Heydər Əliyev ölkəmizə rəhbərliyinin birinci dövrünü əhatə edən 1969-1982-ci illər Azərbaycan tarixinə iqtisadi və milli-mədəni yüksəliş dövrü kimi daxil olmuşdur. Həmin dövrdə xalqımızın böyük oğlunun rəhbərliyi ilə respublika həyatının bütün sahələrində kompleks tədbirlər həyata keçirilmiş, Azərbaycan ittifaq respublikaları içərisində inkişaf tempinə görə öncül mövqeyə yüksəlmiş, tarixi-mədəni irsimiz, milli dəyərlərimiz qorunub yaşadılmış, gələcək müstəqilliyin bünövrəsi qoyulmuşdur.

Ümummilli liderimizin 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi dövr təkcə bu qədim diyarın deyil, bütün Azərbaycanın gələcək taleyində mühüm rol oynamışdır. Naxçıvanın ağır günlər yaşadığı, blokada çətinliyinin və işğal təhlükəsinin getdikcə dərinləşdiyi bir vaxtda ulu öndərin birbaşa iştirakı və rəhbərliyi altında muxtar respublikada tarixi qərarlar qəbul edilmiş, müstəqil dövlətçilik ənənələri formalaşdırılmışdır.

1993-cü ildə Azərbaycanda xaos, vətəndaş müharibəsi alovlananda xalqımız ümummilli liderinə yenidən üz tutdu, nicatını onun hakimiyyətə qayıdışında gördü. Görkəmli dövlət xadimi Azərbaycanı hərc-mərclikdən, müstəqilliyini itirmək təhlükəsindən xilas edərək ictimai-siyasi sabitlik və hərtərəfli inkişaf yoluna çıxarmışdır. 1993-2003-cü illərdə Vətənə və xalqına xidmət nümunəsi göstərən ümummilli liderimiz doğma Azərbaycanın davamlı inkişafını təmin etmiş, onu tərəqqiyə qovuşduraraq bütün dünyada tanıtmışdır.

Ümummilli liderin irsi böyük bir xəzinədir. Bu irsi öyrənərək ondan doğma vətənimiz Azərbaycanın rifahı naminə yararlanmaq isə öz vətənini və millətini sevən hər bir azərbaycanlının mənəvi borcudur. Çünki ***"Xalq mənim dayağım, gücüm və inamımdır"***, – deyən ulu öndərin həyatının bütün məqamlarında əsas dayağı məhz qədirbilən xalqı olmuşdur. Dahi şəxsiyyət pak əməlləri, parlaq ideyaları, məqsədyönlü fəaliyyəti ilə hələ sağlığında xalqının ümummilli lideri adını qazanmışdır.

***"Bizim ölkəmizin bu günü də, gələcəyi də müstəqil Azərbaycandır"***, – deyən ulu öndərin şəxsiyyət olaraq böyüklüyü həm də əsasını qoyduğu siyasi xətti yeni dövrün tələblərinə uyğun davam etdirən qüdrətli lider və davamçı yetişdirməsindədir. Hər kəs bütün varlığı ilə inanır ki, bu gün ölkədə həyata keçirilən siyasi xətt – Heydər Əliyev yolu Azərbaycanı daha böyük zəfərlərə qovuşduracaqdır. Ölkəmiz Prezident İlham Əliyevin rəhbərliyi altında bu yolla inamla irəliləyir, hər ötən il regionda və beynəlxalq aləmdə daha böyük iqtisadi və siyasi uğurlara imza atır. Bu gün xalqımız ümummilli liderinin şah əsəri olan müstəqil, inkişaf etmiş Azərbaycanın vətəndaşları olmaqdan qürur duyur, ulu öndərə dərin məhəbbətlərini onun ideyaları ətrafında sıx birləşməklə nümayiş etdirir.

Ümummilli lider Heydər Əliyev siyasətinin davam etdirilməsi Naxçıvan Muxtar Respublikasını da yeni inkişaf mərhələsinə qovuşdurmuşdur. Muxtar respublikada quruculuq işləri geniş vüsət almış, iqtisadiyyatın dinamik inkişafı, sosial proqramların icrası, enerji və ərzaq təhlükəsizliyi təmin edilmişdir. Qazanılan bütün bu uğurlar, təbii ki, dahi şəxsiyyətin ideya və amallarının dönmədən həyata keçirilməsi nəticəsində mümkün olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri hörmətli Vasif Talıbov demişdir: ***"Bu gün ölkəmizin və muxtar respublikamızın sosial-iqtisadi, elmi və mədəni həyatında gedən proseslərin kökündə fəal yaradıcı gücə malik olan Heydər Əliyev milli dövlətçilik konsepsiyası, inkişafın Heydər Əliyev modeli dayanır. Gecəli-gündüzlü fədakar əməyi ilə müstəqil Azərbaycan dövlətini yaradan, Azərbaycanı öz həyatının mənası bilən ulu öndərimizin xalqımız qarşısında xidmətləri unudulmazdır. Özündən sonra qüdrətli Azərbaycan adlı möhtəşəm abidə qoyub gedən ümummilli liderimizin adı, siyasi və dövlətçilik fəaliyyəti müstəqil Azərbaycanla birgə yaşayır və yaşayacaqdır".***

Həmin gün muxtar respublikanın bütün rayon mərkəzlərində də ümummilli liderimizin əziz xatirəsi dərin ehtiramla yad edilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Ulu öndər Heydər Əliyevin əziz xatirəsi muxtar respublikamızın bütün rayonlarında ehtiramla anılmışdır

## *Şərur rayonu*



Bu qədim oğuz-türk yurdu öz inkişaf yoluna ötən əsrin 70-ci illərində – ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə qədəm qoyub. Muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərur rayonunda müasir Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə genişmiqyaslı tikinti-quruculuq, abadlıq tədbirləri həyata keçirilib, ulu öndərimizin bilavasitə rəhbərliyi və daimi nəzarəti ilə yaradılan Arpaçay Su Anbarı on minlərlə hektar əkinəyararlı sahənin suvarılmasına imkan verib.

Məhz ümummilli lider Heydər Əliyevin diqqət və qayğısı sayəsində ötən əsrin 70-ci illərindən başlayaraq Şərur rayonunda kənd təsərrüfatında mühüm irəliləyişlər əldə olunub. Həmin dövrdə respublikamızda bərqərar olan sosial-iqtisadi inkişaf rayona da sirayət edib. Geniş aqrar sənaye komplekslərinin yaradıldığı Şərur rayonu həmin illərdə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında həmişə ön sıralarda olub. Buna görə də rayon sakinləri ümummilli liderimizin rəhbərliyi ilə həyata keçirilən tədbirləri bu gün minnətdarlıq hissi ilə xatırlayırlar. Ulu öndər bu bölgəyə yüksək qiymət verərək deyib: ***"Mən arzu edirəm ki, siz gələcəkdə öz işlərinizi daha da yaxşılaşdırasınız. Şərur rayonunun imkanları böyükdür. Burada yaxşı torpaqlar var, çox fədakar insanlar, sizlər varsınız. Arzu edirəm ki, buranı daha da abadlaşdırasınız, gözəlləşdirəsiniz və iqtisadiyyatınızı daha da inkişaf etdirəsiniz".***

Ötən əsrin 90-cı illərində muxtar respublikanın ağır blokada şəraitində yaşaması, hakimiyyətdə olan bəzi qüvvələrin regiona ögey münasibət göstərməsi bütün rayonlar kimi, Şərur bölgəsinə də öz mənfi təsirini göstərib. Uzun illər boyu, minbir əziyyətlə yaradılan müəssisələr iflic vəziyyətinə düşərək fəaliyyətini dayandırıb. Kənd təsərrüfatı sahəsində ciddi problemlər özünü göstərib. Lakin ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi dövrdə, eləcə də xalqın təkidli tələbi ilə ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra muxtar respublikanın hər bir rayonu kimi, Şərura da böyük diqqət və qayğı göstərilib.

Bu ənənə hazırda da davam etdirilir. Dövlətimizin diqqət və qayğısı sayəsində regionların inkişafını nəzərdə tutan dövlət proqramlarının uğurla reallaşması nəticəsində Şərur rayonunda bütün sahələr, o cümlədən iqtisadiyyat inkişaf edib, yeni iş yerləri açılıb.

Qurucu rəhbərin göstərişlərinin vaxtlı-vaxtında yerinə yetirilməsi nəticəsində rayonda bir sıra infrastruktur layihələri həyata keçirilib, onlarla müasir bina inşa olunub. Müstəqillik illərində rayonda 1 şəhər və 35 kənd mərkəzi, 40 məktəb binası, 33 kənd yaşayış məntəqəsində səhiyyə ocaqları, 3 kənd uşaq musiqi məktəbi, 33 kənd mədəniyyət müəssisəsi, 1 idman obyekti üçün yeni binalar tikilərək, yaxud yenidən qurularaq istifadəyə verilib. Belə qayğıdan rayonun digər idarə, müəssisə və təşkilatlarına da pay düşüb. Demək olar ki, rayonun bütün idarə, müəssisə və təşkilatları müasir binalarda fəaliyyət göstərir.

Bu gün muxtar respublikanın bütün regionları kimi, münbit torpağı olan Şərur rayonunda aparılan genişmiqyaslı tikinti-quruculuq, abadlıq işləri bu qədim diyarın simasını daha da gözəlləşdirib, tanınmaz dərəcədə dəyişib. Bu isə yerli əhalinin güngüzəranını, yaşayış səviyyəsini xeyli yaxşılaşdırır, onlarda Vətənə, torpağa olan sevgini, eləcə də el-obaya olan bağlılığı daha da artırır. Tarixən qoçaq, zəhmətkeş, əməksevər olan şərurlular yaradılan şəraitdən bəhrələnərək muxtar respublikamızın sosial-iqtisadi inkişafında yaxından iştirak edirlər.

Dövlətə, dövlətçiliyə, xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi kursuna həmişə sədaqətli olan şərurlular bu gün respublika Prezidenti cənab İlham Əliyevin ətrafında sıx birləşir, onun yeritdiyi daxili və xarici siyasəti birmənalı şəkildə bəyənir və müdafiə edirlər. Şərurluların bu fəal vətəndaş mövqeyi muxtar respublika iqtisadiyyatının güclənməsinə verdikləri sanballı töhfələrdə özünü daha qabarıq göstərir.

Dahi rəhbərin anım günündə şərurlular ulu öndərimiz Heydər Əliyevin əziz xatirəsini böyük ehtiramla yad ediblər. Dekabrın 12-də Şərur şəhərinin Heydər Əliyev prospektində ulu öndərimizin əzəmətlə ucalan abidəsi minlərlə insanın ziyarətgahına çevrilib.

## *Babək rayonu*

*Muxtar respublikamızın ərazisinə və əhalisinə görə böyük rayonlarından biri olan Babək rayonunun yaranması ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Hələ Azərbaycana rəhbərliyinin birinci dövründə respublikanın ucqar rayonlarının iqtisadiyyatını möhkəmləndirmək siyasətinin nəticəsi kimi 1978-ci il oktyabrın 23-də təşkil olunmuş bu rayona mərkəzi hakimiyyətin iradəsinin əksi olaraq Babək adının verilməsi ulu öndərimizin qətiyyətinin, daim Azərbaycançılıq mövqeyində dayanmasının, milli yaddaşın bərpası istiqamətində həyata keçirdiyi taleyüklü tədbirlərin nəticəsi idi.*



Bu gün 73 minə yaxın əhalisi olan Babək rayonu 36 kənd və bir qəsəbədən ibarətdir. Rayon mərkəzi Babək qəsəbəsi və bir sıra iri kəndlər muxtar respublikamızın paytaxtı Naxçıvan şəhərinə yaxın olan yaşayış məntəqələri kimi sürətlə inkişaf edirlər. Belə coğrafi imkan rayonun digər yaşayış məntəqələrinin də simasının sürətlə dəyişilməsinə, əhalinin rifahının şəhər standartlarına çatmasına imkan yaradır. Babəkin şəhərə yaxın kəndləri ilə yanaşı, ucqar yaşayış məntəqələri də inkişaf edir. Bu gün Nehrəmdə, Qahabda, Kərimbəylidə, Şıxmahmudda yaradılmış müasir şəraitin eynisi ucqar dağ kəndləri olan Göynükdə, Nəhəcirdə, Naxışnərgizdə, Yuxarı Buzqovda da vardır.

Ulu öndər Heydər Əliyevin siyasətinin uğurla davam etdirilməsi sayəsində 2002-ci illə müqayisədə Babək rayonunda sənaye məhsulunun həcmində 36,9 dəfə artım olmuşdur. Hazırda Babək rayonunda fəaliyyətdə olan müxtəlif istehsal müəssisələrinin sayı 23-ə çatmışdır. Rayon ərazisində iri daş məhsulları, kərpic, beton məmulatları və mineral su istehsalı müəssisələri ilə yanaşı, kiçik sahibkarlıq obyektləri də vardır. Nehrəmdə və Şıxmahmudda gəc istehsalı sahələrini, Cəhri, Sirab və Hacıvardakı un dəyirmanlarını və digər kəndlərdəki istehsal sahələrini də nəzərə alsaq, burada çox sayda babəklinin işlə təmin olunduğunu görmək olar. Şübhəsiz, Babək rayonunun təbii sərvətləri, burada sahibkarlığın və kənd təsərrüfatının inkişafına göstərilən dövlət qayğısı daha çox sayda istehsal sahəsinin yaradılmasına imkan verir.

Ötən dövrdə təkcə Babək qəsəbəsində 20-dən çox sosial obyekt, 3 idman obyekti, 20 kənddə kənd və xidmət mərkəzləri istifadəyə verilmişdir.

Abad yurd yolundan bəlli olar, – deyiblər. Babək rayonu da rahat yolnəqliyyat infrastrukturuna malikdir. Son illərdə burada genişhəcmli Hacıvar-Vayxır-Sirab və Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolları inşa olunmuş, görülmüş kompleks yol infrastrukturu işləri nəticəsində 400 kilometrdən çox yeni yol çəkilmiş, kəndlərdən rayon mərkəzinə və Naxçıvan şəhərinə gedişgəliş xeyli dərəcədə asanlaşmışdır. Ötən illər ərzində Babəkdə mədəniyyətin inkişafı istiqamətində də mühüm tədbirlər həyata keçirilmişdir. Bu dövrdə rayonda 22 mədəniyyət müəssisəsi üçün yeni binalar istifadəyə verilmişdir.

Dekabrın 12-də ümummilli lider Heydər Əliyevin əziz xatirəsi muxtar respublikamızın hər yerində olduğu kimi, Babək rayonunda da böyük ehtiramla anılmışdır. Həmin gün rayon mərkəzinin Heydər Əliyev prospektində ulu öndərimizin əzəmətlə ucalan abidəsi minlərlə insanın ziyarətgahına çevrilmişdir. Rayon sakinləri müstəqil Azərbaycanın qurucusunun xatirəsini dərin ehtiramla yad etmişlər.

* * *

## *Ordubad rayonu*

Xalqımızın ümummilli lideri Heydər Əliyevin "Azərbaycanın incisi" adlandırdığı Ordubad rayonunda dahi rəhbərin qurub-yaratdıqlarını sadalamaqla bitməz. Rayonun hərtərəfli inkişaf etdirilməsi ümummilli liderin Azərbaycana rəhbərliyinin hər iki dövründə diqqətdə saxlanılıb. Qeyd etmək lazımdır ki, ötən əsrin 80-ci illərinin sonlarında qədim yurd yerimizin insanları böyük çətinliklərlə üzləşmişdilər. Ancaq dahi rəhbərin muxtar respublikaya gəlişindən sonra digər bölgələrimiz kimi, Ordubad da sürətli inkişaf yoluna qədəm qoydu. Sonrakı dövrdə rayonda vəziyyət müsbətə doğru dəyişildi, bütün sahələrdə böyük problemlərin olduğu bölgəmizdə həyata keçirilən təxirəsalınmaz tədbirlər nəticəsində ictimai-siyasi sabitlik, əmin-amanlıq bərpa edildi, iqtisadi böhranın aradan qaldırılması üçün ilkin zəruri addımlar atıldı. Rayonun müxtəlif sahələrdə inkişafına əhalinin bütün təbəqələri cəlb edildi, məşğulluq probleminin aradan qaldırılması istiqamətində təxirəsalınmaz tədbirlər həyata keçirildi, azad sahibkarlıq üçün geniş imkanlar yaradıldı, dağıdılmış aqrar sahə bərpa edildi.






Son illərdə Ordubad rayonunda əldə olunan nailiyyətlər onu deməyə əsas verir ki, ulu öndərimizin Naxçıvanın inkişafı naminə başlatdığı işlər uğurla davam etdirilib. Elə buna görə də həyata keçirilən tədbirlərin parlaq nəticələrini rayonun hər bir yaşayış məntəqəsində görmək olar. İllər ötdükcə, Naxçıvanda gedən inkişaf prosesi yeni mərhələyə qədəm qoyduqca, muxtar respublikanın sosial-iqtisadi inkişafı istiqamətində həyata keçirilən tədbirlər bütün bölgələr kimi, Ordubadın da sosial-iqtisadi inkişafına öz töhfələrini verdikcə, rayon iqtisadiyyatının daha da güclənməsi səbəbindən əhalinin gün-güzəranı yaxşılaşdıqca qədirbilən ordubadlılar görülən işlərin əsl mahiyyətini daha yaxşı, daha dərindən dərk edirlər. Çünki bölgənin ən ucqar dağ və sərhəd kəndlərinin belə, siması dəyişib, yaşayış məntəqələrində tikinti-quruculuq işləri geniş vüsət alıb. Yeni tikililər, bərpa olunan tarixi abidələr, salınan park və xiyabanlar qədim yurd yerinə müasir görkəm gətirib. Ümumiyyətlə, müstəqillik illərində 70-dən çox obyekt inşa edilərək və ya yenidən qurularaq istifadəyə verilib, onlarla yaşayış məntəqəsi, eləcə də ucqar dağ yaşayış məntəqələri abad kəndlər sırasına qoşulub. Ötən müddətdə 27 ümumtəhsil, 1 musiqi məktəbi, 1 uşaq bağçası, 24 səhiyyə, 1 idman, 29 mədəniyyət obyekti inşa edilərək istifadəyə verilib, 15 kənd mərkəzi həyata vəsiqə alıb. Görülən işlərin nəticəsidir ki, bu gün Ordubad tarixiliyini saxlamaqla ən abad və müasir bir rayona çevrilib. Bütün bunlar Heydər Əliyev yolunun uğurla davam etdirilməsinin nəticəsidir. Ölkəmizin gələcəyi üçün gördüyü işlərə, insanların rifahı naminə misilsiz xidmətlərinə, bugünkü əmin-amanlığa, firavanlığa görə xalqımızın böyük oğlu rayon sakinləri tərəfindən həmişə minnətdarlıqla xatırlanır, ümummilli liderimizin xatirəsi əziz tutulur. Dahi rəhbərin xatirəsinə sonsuz ehtiram dünən bir daha ifadə olunub. Ulu öndərin anım günündə rayon sakinləri görkəmli dövlət xadimi Heydər Əliyevin rayon mərkəzindəki abidəsi önünə gələrək ona sevgi və ehtiramlarını bildirib, ən böyük azərbaycanlının əziz xatirəsini bir daha yad ediblər.

*Ardı 3-cü səhifədə*

## Culfa rayonu



*Muxtar respublikamızın bütün bölgələri kimi, Culfa rayonunun sakinləri də ümummilli liderin anım günündə Onun əziz xatirəsini böyük ehtiramla yad edirlər. Rayonun hansı səmtinə üz tutsan, orada dahi rəhbərin ideyalarının uğurla davam etdirildiyinin şahidi olarsan.*

Culfa rayonu istər tarixi-mədəni, istərsə də strateji baxımdan regionun mühüm əhəmiyyət kəsb edən ərazilərindən biridir. Ümummilli lider Heydər Əliyev hakimiyyətdə olduğu hər iki dövrdə digər rayonlar kimi, Culfa rayonunun da sosial, iqtisadi, mədəni yüksəlişinə daim qayğı ilə yanaşmışdır.

Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyasının muxtar respublikamızda uğurlu davamının nəticəsidir ki, digər rayonlarda olduğu kimi, Culfa rayonunda da kompleks quruculuq tədbirləri həyata keçirilmiş, son illər rayonda 7036 şagird yerlik 19 ümumtəhsil məktəbi, 2 musiqi məktəbi, 2 uşaq bağçası, 5 məktəbdənkənar müəssisə, 23 səhiyyə obyekti, 11 mədəniyyət müəssisəsi üçün yeni bina, 15 kənd mərkəzi istifadəyə verilmiş, obyektlər müasir avadanlıqlarla təchiz edilmişdir. Rayonda həyata keçirilən tədbirlər gələcəyimiz olan uşaqların yaxşı təhsil almasına, sağlam böyüməsinə, rayon sakinlərinin rahat yaşamasına və asudə vaxtının səmərəli keçirilməsinə, kəndlə şəhər arasındakı fərqin aradan qaldırılmasına zəmin yaratmışdır.

Culfa şəhəri də aparılan abadlıq-quruculuq tədbirləri nəticəsində gözəl bir məkana çevrilmişdir. Bir-birindən yaraşıqlı inzibati və yaşayış binaları, parklar, abad prospekt və küçələr, həm şəhərdaxili, həm də rayonun kəndləri arasında salınmış asfalt yollar sakinlərin istifadəsinə verilmişdir. Həmçinin əhalisinin 70 faizdən çoxu kəndlərdə yaşayan muxtar respublikamızın digər bölgələrində olduğu kimi, Culfa rayonunda da aqrar bölmənin inkişafı mühüm əhəmiyyətli sahə kimi diqqət mərkəzində saxlanılmış, daxili bazarın keyfiyyətli yerli kənd təsərrüfatı məhsulları ilə təmin olunmasına əlverişli şərait yaradılmışdır. Həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər öz bəhrəsini vermiş, əhalinin məşğulluğu təmin olunmuş, maddi rifah halı daha da yaxşılaşmışdır.

Təbii ki, görülən işlər Culfa rayonunun sakinləri tərəfindən minnətdarlıqla qarşılanır, xalqımızın böyük oğlu, dahi şəxsiyyət Heydər Əliyevin əziz xatirəsi dərin ehtiramla yad edilir. Böyük liderə olan ehtiramın ifadəsidir ki, rayon sakinləri ulu öndərin anım günündə bir daha dahi rəhbərin əziz xatirəsini yad etmiş, Onun Culfa Rayon İcra Hakimiyyətinin binası qarşısında ucaldılmış büstünü ziyarət etmişlər.

## Kəngərli rayonu



***Dünən xalqımızın böyük oğlu, dünya şöhrətli siyasətçi Heydər Əliyevin əziz xatirəsi Kəngərli rayonunda da böyük izdihamla, hörmət və ehtiramla anılıb. Ulu öndərimizin anım günü ilə əlaqədar olaraq keçirilən mərasimdə rayon sakinləri ümummilli liderimizin əziz xatirəsini yad etməklə dahi şəxsiyyətə və Onun nurlu yoluna olan hörmət və ehtiramlarını bir daha nümayiş etdiriblər.***

Həmin gün xalqımızın böyük oğlunun rayon mərkəzində əzəmətlə ucaldılan abidəsi minlərlə insanın axın etdiyi məkana çevrilib.

Kəngərli rayonunun yaradılması və bugünkü inkişafı da ulu öndərimizin yolunun uğurlu davamının nəticəsidir.

Yeni rayonun yaradılması, yeni idarə, müəssisə və təşkilatların fəaliyyətə başlaması mindən çox iş yerinin yaranmasına, bölgə iqtisadiyyatının güclənməsinə, ailələrin məskunlaşmasına şərait yaratdı. Tarixi bir adı özündə yaşadan Kəngərli rayonu qısa müddət ərzində muxtar respublikanın digər rayonlarının inkişaf səviyyəsinə çatdı.

Ötən müddət ərzində rayonda genişhəcmli quruculuq işləri aparılıb. Muxtar respublikamızda artıq ənənə halını almış kənd mərkəzlərinin tikintisi Kəngərli rayonunun bütün yaşayış məntəqələrini əhatə edib. Hazırda rayonun Yurdçu kəndində orta məktəb, kənd və xidmət mərkəzləri üçün binaların tikintisində son tamamlama işləri aparılır. Bu işlər tamamlandıqdan sonra Kəngərli rayonu muxtar respublikada bütün yaşayış məntəqələrinin abadlaşdırıldığı ilk rayon olacaq.

Rayon mərkəzi Qıvraq qəsəbəsində hər il yeni binaların istifadəyə verilməsi qəsəbənin simasını xeyli dəyişib. Ötən il burada Təhsil Şöbəsi, Uşaq-Gənclər Şahmat Məktəbi, Elektrik Şəbəkəsi üçün yeni binalar və "Qıvraq" elektrik yarımstansiyası istifadəyə verilib. Bu il isə qəsəbədə yeni Ticarət-İaşə və Bazar Kompleksi tikilib. Bundan əlavə, istifadəyə verilən tikililərin ətrafı abadlaşdırılıb, qəsəbə məscidi əsaslı təmir olunub. Son illərdə görülən işlərin nəticəsidir ki, rayonda bütün kənd yolları abadlaşdırılıb.

Əldə olunan nailiyyətlər təkcə iqtisadi sahələri əhatə etmir. Mədəniyyət, təhsil, səhiyyə kimi humanitar sahələr də öz inkişafının yeni mərhələsindədir. Kəngərli rayonunun sakinləri bütün bu uğurlara görə əbədiyaşar liderimiz Heydər Əliyevə borclu olduqlarını dərindən dərk edirlər.

## Şahbuz rayonu



12 dekabr müstəqil Azərbaycanın qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin əbədiyyətə qovuşduğu gün kimi bütün azərbaycanlılar tərəfindən ehtiramla anılır. Bu gün ölkəmizin hər yerində dahi şəxsiyyətin Azərbaycan xalqı qarşısında xidmətləri, Onun tükənməz Vətən sevgisi bir daha ümumxalq sevgisi ilə xatırlanır. Müstəqil Azərbaycanın güclü bir dövlət kimi yaşaması, ölkəmizin hər yerində insanların azad, xoşbəxt bir vətəndaş kimi yaşayıb fəaliyyət göstərməsi ulu öndərimizin yolunun uğurla davam etdirilməsinin nəticəsidir.

Şahbuz rayonu da ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf və tərəqqi yolu ilə inamla irəliləməkdədir. Müstəqillik illərində rayon iqtisadiyyatı inkişaf etdirilmiş, əhalinin güzəranı qat-qat yaxşılaşmışdır. Şahbuzun, demək olar ki, bütün yaşayış məntəqələri müasirliyə qovuşmuş, rahat yol və nəqliyyat, etibarlı enerji və rabitə infrastrukturu yaradılmışdır. Bu dövrdə rayonda 21 məktəb, 3 musiqi məktəbi, 1 uşaq bağçası, 1 məktəbdənkənar müəssisə, 22 səhiyyə, 21 mədəniyyət, 2 idman obyekti, 19 kənd mərkəzi üçün yeni binalar tikilərək, yenidən qurularaq və ya əsaslı təmir olunaraq istifadəyə verilmişdir. Öz firavan həyatını qurmuş şahbuzlular ulu öndərin xalqımız qarşısındakı misilsiz xidmətlərini, ölkəmizin, muxtar respublikamızın çətin dövrlərindəki xilaskarlıq missiyasını həmişə minnətdarlıqla xatırlayırlar.

Dünən Şahbuz rayon əhalisi görkəmli dövlət xadimi Heydər Əliyevin Şahbuz Rayon İcra Hakimiyyəti önündə ucaldılmış büstünü ziyarət etmişlər. Ulu öndərin Vətəninə, xalqına xidmətləri dərin minnətdarlıqla anılmışdır.

* * *

## Sədərək rayonu

*Naxçıvan Muxtar Respublikasının sərhəd bölgəsi olan Sədərək rayonunun yaradılması, inkişafı və tərəqqisi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Sədərək rayon kimi muxtar respublikanın inzibati ərazi bölgüsünə 1990-cı il avqustun 28-də daxil edilmişdir. Rayon mərkəzi olan Heydərabad qəsəbəsinin əsası hələ ümummilli liderin Azərbaycana birinci rəhbərliyi dövründə qoyulmuşdur.*

Ötən əsrin 90-cı illərində Sədərək mənfur ermənilər tərəfindən mütəmadi hücumlara məruz qalmışdır. Naxçıvanın qala qapısı sayılan bu bölgədə 1990-1993-cü illərdə ağır döyüşlər getmişdir. Həmin illərdə buradakı ağır vəziyyətlə bilavasitə tanış olan ümummilli lider Heydər Əliyev bu hücumların qarşısının alınması üçün misilsiz xidmətlər göstərmiş, dünya ölkələrinin diqqətini burada baş verən hadisələrə yönəltmişdir. Dahi şəxsiyyətin böyük nüfuzu, uzaqgörən siyasəti nəticəsində düşmən hücumlarının qarşısı qətiyyətlə alınmış, rayonun müdafiəsi üçün mühüm addımlar atılmışdır. Ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olduğu dövrdə rayonun sosial-iqtisadi inkişafının təmin edilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir. 1 qəsəbə və 2 kənd yaşayış məntəqəsindən ibarət olan Sədərək rayonu ötən dövrdə böyük inkişaf yolu keçərək hərtərəfli tərəqqiyə qovuşmuşdur. 1996-cı ildən 1 noyabr 2015-ci ilədək rayonda 1782 şagird yerlik 4 ümumtəhsil məktəbi, 1 uşaq musiqi məktəbi, 2 uşaq bağçası, 3 səhiyyə müəssisəsi, 4 mədəniyyət obyekti, 2 idman obyekti, 2 kənd mərkəzi tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilmişdir. Rayon mərkəzi olan Heydərabad qəsəbəsinin siması büsbütün dəyişmiş, yeni park və küçələr salınmış, yaşıllıqlar yaradılmış, rayonun bütün daxili yolları abadlaşdırılmışdır.



Təbii ki, sədərəklilər bu gün ümummilli liderin Sədərək rayonunun yaradılması, Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsində xidmətlərini dərin hörmət və ehtiramla anırlar. Bu böyük sevgi və ehtiramı rayon ictimaiyyəti dünən Türk dünyasının böyük oğlu Heydər Əliyevin Heydərabad qəsəbəsində əzəmətlə ucalan abidəsini ziyarət etməklə bir daha göstərdi.

**Xəbərlər şöbəsi**

## Ulu öndər Heydər Əliyevin zəngin siyasi fəaliyyəti əsl dövlət idarəçiliyi məktəbinə çevrilib

*Mənalı həyatını öz xalqına bəxş etmiş ulu öndər Heydər Əliyevin zəngin siyasi fəaliyyəti əsl dövlət idarəçiliyi məktəbinə çevrilib. Azərbaycan xalqı hər zaman ümummilli liderimiz Heydər Əliyevin zəngin siyasi irsindən ölkəmizin inkişafı naminə faydalanacaq.*

Bu fikirləri Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov ali təhsil ocağında "Ulu öndər Heydər Əliyev və Azərbaycan" mövzusunda keçirilən elmi konfransdakı çıxışında səsləndirib.

Rektor xalqımızı bəlalardan xilas etməyi, inkişafa doğru istiqamətləndirməyi bacaran dövlət xadimi, uzaqgörən siyasətçi Heydər Əliyevin Azərbaycan tarixindəki rolundan bəhs edib. Vurğulanıb ki, ulu öndər hər zaman xalq ilə birgə olub, onunla nəfəs alıb, həyatının mənasını xalqına xidmətdə görüb.

Universitetin tədris işləri üzrə prorektoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Surə Seyid "Ulu öndər Heydər Əliyevin siyasi irsində Azərbaycançılıq ideologiyası" mövzusunda məruzə edərək 1969-cu ildən 2003-cü ilədək Azərbaycan siyasi mühitinə Heydər Əliyev epoxası kimi daxil olan böyük bir tarixi dövrü şərh edib. Bu illəri dahi rəhbərin Azərbaycançılıq təliminin möhtəşəm təntənəsi kimi dəyərləndirib. Məhz həmin illərdə dahi rəhbərimiz tərəfindən Azərbaycançılıq ideologiyasının əsas müddəaları, başlıca prinsipləri sistemli şəkildə işlənib hazırlanıb və cəmiyyət həyatının bütün sahələrində öz ifadəsini tapıb.

Vurğulanıb ki, bu gün gələcəyə inamla irəliləyən Azərbaycan dahi liderin ideyalarının davamçısı olan Prezident İlham Əliyevin rəhbərliyi ilə özünün yeni inkişaf mərhələsini yaşayır.

Universitetin Mətbuat şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Mehriban Sultan "Ümummilli lider Heydər Əliyevin Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətləri" mövzusundakı məruzəsində qeyd edib ki, ədəbiyyata xalqın taleyinin və tarixi yaddaşının əks-sədası kimi baxan ulu öndərimiz bədii düşüncədə tarixilik, millilik və müasirlik prinsiplərinə xüsusi dəyər verib, sadalanan prinsiplər dahi rəhbərin dövlətçilik təlimində ədəbiyyat siyasətinin əsasını təşkil edib.

Qeyd olunub ki, Heydər Əliyevin ədəbiyyat təlimi, sözün həqiqi mənasında, əsl professionallığa əsaslanır. Görkəmli dövlət xadiminin ayrı-ayrı sənətkarlıq nümunələri, konkret bədii əsərlər, teatr tamaşaları haqqındakı mülahizələri ədəbiyyatşünaslıq və sənətşünaslıq elmlərinin ən yüksək tələbləri və prinsiplərindən ucada dayanır.

Sonra Naxçıvan Dövlət Universitetinin Jurnalistika və dünya ədəbiyyatı kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru Şəhla Şirəliyevanın, universitetin müəllimi, filologiya üzrə fəlsəfə doktoru, dosent Xumar Məmmədovanın məruzələri dinlənilib.

Elmi konfransda milli dövlətçiliyimizin memarı və qurucusu olan xalqımızın böyük oğlu Heydər Əliyevin siyasi fəaliyyətini əks etdirən slaydlar nümayiş etdirilib.

**Mina QASIMOVA**



*Naxçıvan Muxtar Respublikasında yeni təhsil müəssisələrinin tikintisi, ümumtəhsil məktəblərinin ən müasir informasiya-kommunikasiya texnologiyaları ilə təminatı və təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində görülən işlər tədrisin yeni metodlarla tətbiqinə geniş imkanlar açıb. Təhsil infrastrukturunun müasirləşdirilməsi sahəsində görülən işlər Heydər Əliyev adına tam orta məktəbi də əhatə edib. Məktəb ötən dövrdə muxtar respublikada təhsilin inkişafına mühüm töhfələr verib, ali və orta ixtisas məktəblərinə, hərbi təhsil müəssisələrinə qəbul zamanı uğurlu nəticələr qazanıb.*

# Heydər Əliyev adına tam orta məktəb muxtar respublikanın qabaqcıl təhsil mərkəzidir

"Heydər Əliyev adına tam orta məktəbin yaradılmasının 10 illiyinin qeyd olunması haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 21 avqust 2014-cü il tarixli Sərəncamından sonra məktəbin binasında yenidənqurma işləri aparılıb. Hazırda təhsil ocağında 5-i elektron lövhəli olmaqla, 61 sinif otağı, 3 kompüter otağı, kimya, biologiya və fizika laboratoriyaları, kitabxana, hərbi kabinə, 2 şahmat sinfi və müəllimlər otağı, emalatxana və idman zalı var. 1111 şagirdin təhsil aldığı məktəbdə gənclərin təlim-tərbiyəsi ilə 105 müəllim məşğul olur. Məktəbin kompüter otaqlarında 57 kompüter dəsti quraşdırılıb, internetə çıxış təmin olunub. Həmçinin elektron lövhəli siniflərdə və laboratoriyalarda da müasir tədris imkanları yaradılıb. Məktəbin kitabxana fondunda 16 mindən çox dərslik və bədii ədəbiyyat vardır.

Məktəbin kitabxanasında olarkən kitabxanadan mütəmadi olaraq istifadə edən şagirdlərlə də həmsöhbət olduq. Kitab həvəskarlarından olan VIII sinif şagirdi İnci Quliyeva deyir ki, kitabxanada ulu öndərimizin həyat və fəaliyyətindən bəhs edən kitabları həvəslə mütaliə edir. Bundan başqa, o və şagird yoldaşları Azərbaycan ədəbiyyatı ilə yanaşı, xarici ölkə yazıçılarının əsərlərini də mütaliə etməyə üstünlük verirlər. Kitabxananın daimi oxucularından olan Səma Hüseynzadə mütaliə işində müəllimlərdən, məktəb kitabxanaçılarından kömək aldığını, müəllimlərin onlara yaş dövrünə uyğun kitabların seçilməsində məsləhət verdiklərini bildirdi. Qeyd etdi ki, tətil günlərində müəllimlər tərəfindən mütaliə olunacaq kitabların siyahısı hazırlanıb onlara verilir, tətil başa çatdıqdan sonra həmin kitablardan çıxarılan nəticələr müzakirə edilir.

Məktəbin direktoru, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Namiq Məmmədov ilə söhbət zamanı bildirdi ki, muxtar respublika rəhbərinin təhsil və tədrisin təşkili ilə bağlı qarşıya qoyduğu vəzifələr bu gün məktəbin kollektivi tərəfindən uğurla icra olunur. Ötən müddətdə xalqımızın zəngin maarifçilik ənənələrini layiqincə davam etdirən məktəb təlim-tərbiyə və tədris işinin təşkilində, təhsilli və vətənpərvər gənclərin yetişdirilməsində böyük nailiyyətlər qazanıb. 2004-cü ildən bəri məktəbin 429 məzunu olub, onlardan 364 nəfəri ali məktəblərə, 63 nəfəri ali hərbi, xüsusi təyinatlı ali məktəblərə və Heydər Əliyev adına Hərbi Liseyə, eləcə də orta ixtisas təhsili müəssisələrinə qəbul olunub. Məktəb 2007-2008-ci tədris ilində "Ən yaxşı ümumtəhsil məktəbi" müsabiqəsinin qalibi olub. 2015-ci ildə məktəbi bitirən məzunlardan biri qızıl medala layiq görülüb. Ötən tədris ilində ali məktəblərə 64 nəfər qəbul olunub, onlardan 15-i imtahanlarda daha yüksək nəticə göstərərək 500-700 intervalında bal toplayıb. Təhsil müəssisəsi muxtar respublikanın idman həyatına da mühüm töhfələr verib, məktəbin şagirdləri beynəlxalq və respublika əhəmiyyətli yarışlarda fəal iştirak edərək yüksək nailiyyətlər qazanıblar. Hazırda məktəbin şagirdləri arasında boks üzrə 2 Avropa çempionu var. Məktəbin bir şagirdinin adı isə "Naxçıvan Muxtar Respublikası gənc istedadlarının "Qızıl kitabı"na salınıb. Bu nəticələrin əldə edilməsində böyük əmək sərf edən müəllimlərin fəaliyyəti də yüksək



qiymətləndirilib, Ali Məclis Sədrinin 2014-cü il 21 oktyabr tarixli Sərəncamına əsasən, məktəbin iki müəllimi "Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi" fəxri adına layiq görülüb.

Heydər Əliyev adına tam orta məktəbin yaradılmasının 10 illiyi münasibətilə keçirilən yubiley tədbirində çıxış edən Ali Məclisin Sədri muxtar respublikada təhsilin inkişafına verdiyi töhfələrə, savadlı, vətənpərvər və intellektli gənc nəslin yetişdirilməsi sahəsindəki səmərəli fəaliyyətinə görə Heydər Əliyev adına tam orta məktəbin kollektivinə təşəkkürünü bildirərək demişdir: *"Ümummilli liderimizin adını daşıyan məktəbdə təhsil almaq böyük şərəf, şagirdlərə elmin sirlərini öyrətmək isə bununla yanaşı, həm də böyük məsuliyyətdir. Pedaqoji heyətin qarşısında müstəqil Azərbaycanın gələcək təminatçılarını yetişdirmək kimi mühüm vəzifə dayanır. Məktəbdə milli dəyərlərimiz, adət-ənənələrimiz, tariximiz gənclərə dərindən öyrədilməlidir. Təlim-tərbiyə və tədris prosesi bu günə qədər olduğu kimi, bundan sonra da müasir metodlarla qurulmalıdır. Müstəqil Azərbaycan üçün vətənpərvər gənclər hazırlanmalı, məktəb daim ulu öndərimizin adına layiq olmalıdır. Təhsilin məqsəd və vəzifələri təkcə sistemli biliklərin verilməsi ilə məhdudlaşmamalıdır. Məktəb, təhsil işi, eyni zamanda mühüm tərbiyə mərkəzi funksiyasını daşımalı, gənclərin cəmiyyətin layiqli üzvü kimi hazırlanması daim diqqət mərkəzində saxlanmalıdır. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, "Bizim təhsilimiz Azərbaycanın dövlət müstəqilliyinə xidmət edərək, əsl vətəndaş tərbiyə olunması prosesinə cəlb edilibdir. Ona görə də Azərbaycanın müstəqilliyinin dönməz və əbədi olmasının əsas mənbəyi və təminatçısı məhz Azərbaycan gəncliyidir".*

Heydər Əliyev adına tam orta məktəbdə gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi və onların ilkin hərbi vərdişlərə yiyələnməsi də diq-



qət mərkəzindədir. Hərbi kabinədə çağırışaqədərki hərbi hazırlıq fənninin tədrisi üçün lazımi şərait yaradılıb, elektron lövhə quraşdırılıb. Şagirdlərə çağırışaqədərki hərbi hazırlıq fənnini tədris edən Faur Məmmədov deyir ki, məktəblilər bu fənnə böyük maraq göstərir, dərslərdə aktivlik nümayiş etdirirlər. Bu da böyüməkdə olan nəslin hərb sənətinə həvəsli olduğunun göstəricisidir. Muxtar respublikada Heydər Əliyev adına Hərbi Liseyin yaradılması, təhsil müəssisələrində hərbi kabinələrin fəaliyyət göstərməsi, onlara lazımı avadanlıqların verilməsi, hər il hərbi rəhbərlərin toplantısının keçirilməsi, onların xüsusi hərbi geyim forması ilə təmin olunması, eyni zamanda bu sahə üzrə həyata keçirilən müxtəlif tədbirlər, yarış və müsabiqələr məktəblilərin ibtidai hərbi hazırlığına, vətənpərvərlik hissinin gücləndirilməsinə müsbət təsir göstərir, hərbi təhsilə maraq artır. Ümummilli liderin adını daşıyan məktəbdə bu sahədə həyata keçirilən tədbirlər öz bəhrəsini verib, 2015-ci ildə məktəbin 6 şagirdi Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunub.

Məktəbdə Azərbaycan dili və ədəbiyyat fənnini tədris edən Gülşən Fətullayeva ilə söhbət zamanı dedi ki, bu gün müəllimlərin qarşısında duran əsas vəzifələr istedadlı şagirdləri üzrə çıxarmaq, milli mənəviyyatlı, müstəqil ölkəmizin inkişafı naminə fədakarlıqla çalışan ləyaqətli, savadlı vətəndaş tərbiyə etməkdən ibarətdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri məktəbin fəaliyyətini yüksək qiymətləndirərək demişdir: *"Ölkənin tərəqqisi təhsildən, təhsilin inkişafı isə müəllimlərin fəaliyyətindən asılıdır. Bu məktəbdə də əldə olunan nailiyyətlər müəllim tələbkarlığının və şagird çalışqanlığının nəticəsidir. Heydər Əliyev adına tam orta məktəb muxtar respublikanın qabaqcıl təhsil mərkəzi kimi bundan sonra da öz fəaliyyətini genişləndirməlidir".*

Ümummilli liderimizin adını daşıyan tam orta məktəbdə gördüklərimiz, bu təhsil ocağının aparıcı qüvvəsi olan müəllimlər ilə söhbət zamanı bir daha əmin olduq ki, Ali Məclisin Sədri tərəfindən müəyyənləşdirilən vəzifələr bundan sonra da kollektiv üçün əsas fəaliyyət istiqaməti olacaq, gələcək illərdə də uğurlu nəticələrin qazanılması naminə böyük səy göstəriləcək.

*Ulu öndərimiz xalqın yaddaşında yüksək intellektli, xeyirxah, vətənpərvər, yaradıcı, millətini hər şeydən uca tutmağı bacaran, həyatının hər anı xalqının taleyinə bağlı olan dahi insan kimi qalıb. Bu gün Heydər Əliyev adına tam orta məktəbin hər bir şagirdi də çalışır ki, yaxşı oxumağı, öyrənməyi, qüsursuz nitqi, nümunəvi davranışı ilə ulu öndərin adını daşıyan məktəbin şagirdi adını şərəflə daşısın, vətənə, xalqa xeyirli və layiqli övlad kimi yetişsin.*

✍ **Səbuhi HÜSEYNOV**

## Daxili işlər orqanlarında vakant vəzifələrin tutulması üçün test imtahanı keçirilib



*Naxçıvan Muxtar Respublikasının daxili işlər orqanlarında vakant vəzifələrin tutulması üçün bu il oktyabrın 17-də müsabiqə elan edilib.*

Dekabrın 11-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın test mərkəzində imtahanların keçirilməsinə başlanılıb. İmtahanlarda iştirak etmək üçün 45 namizəd sənəd təqdim edib. Onlardan 10 nəfəri polis sahə inspektoru, 35 nəfəri isə yetkinlik yaşına çatmayanlarla profilaktik işin təşkili üzrə inspektor vəzifəsini seçib. İmtahanda namizədlərə ixtisas üzrə 80, məntiqi təfəkkürün yoxlanılması üzrə 20 sual olmaqla, 100 sual təqdim edilib, sualları cavablandırmaq üçün 2 saat 30 dəqiqə vaxt ayrılıb. Test imtahanında şəffaflığın təmin edilməsi məqsədilə prosesin videoçəkilişi aparılıb. İmtahan başa çatdıqdan sonra namizədlərə cavab kartı və test imtahanının nəticəsinə dair arayış təqdim edilib. Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşları imtahanda müşahidəçi qismində iştirak ediblər.

Məlumat üçün qeyd edək ki, test imtahanları dekabrın 14-dək davam edəcək. İmtahanlarda keçid balını toplayan namizədlər müsahibə mərhələsində iştirak etmək hüququ qazanacaqlar.

**Xəbərlər şöbəsi**

## Qolbol idman növü üzrə təlim-məşq seminarı

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və muxtar respublikanın idman federasiyalarının təşkilatçılığı ilə məşqçi-müəllimlər və idmançılar üçün seminarların keçirilməsi davam etdirilir.***

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Paralimpiya Federasiyasının təşkilatçılığı ilə Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində qolbol idman növü üzrə "Naxçıvan" komandasının məşqçi-müəllim və idmançı heyəti üçün təlim-məşq seminarı keçirilib. Azərbaycan Milli Paralimpiya Komitəsinin qolbol idman növü üzrə komandasının baş məşqçisi Zahir Abdullayev tədbir iştirakçılarını qolbol idman növü üzrə olan yeniliklər haqqında məlumatlandırıb. Sonra isə seminar idmançıların məşqi ilə davam etdirilib.

Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyası bütün kateqoriyadan olan məhdud fiziki imkanlı şəxslərin bədən tərbiyəsi və idmana maraqlarının artırılmasını, bu kateqoriyadan olan idmançıların mövcud idman qurğularından səmərəli istifadələri üçün zəruri şəraitin yaradılmasını, istedadlı idmançıların aşkara çıxarılması məqsədilə müvafiq qurumlarla birgə tədbirlərin həyata keçirilməsini diqqət mərkəzində saxlayır. Cari ilin ötən dövrü ərzində məhdud fiziki imkanlı idmançılar arasında xalq uşaq oyunları, tennis, darts (lövhəyə oxatma), şahmat, dama, yüngül atletika, qolbol və sair idman növləri üzrə yarışlar təşkil edilib, həmçinin sağlamlıq imkanları məhdud uşaqlardan təşkil olunan bədii gimnastika bölməsi fəaliyyətə başlayıb. Qolbol idman növü üzrə "Naxçıvan" komandasının oyun təcrübəsinin artırılması üçün tədbirlərin təşkili də diqqət mərkəzində saxlanılır.

✍ **Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 935